COVID-19 və Azərbaycan. Pandemiyanın ilk aylarında siyasi təzyiq halları

Azərbaycanda mart ayının ortalarından etibarən koronavirus infeksiyası ilə mübarizə tədbirləri çərçivəsində karantin rejimi elan olunub. Prezident İlham Əliyev 19 mart 2020 tarixli çıxışında isə bildirib ki, virusla mübarizə yeni münasibətlər sistemini gərəkdirir və müxalif qüvvələrin virusla mübarizə çərçivəsində təcrid olunması da zəruri ola bilər.[1]

Mart ayının 22-də isə müxalif fəal, Müsavat Partiyası və Demokratik Qüvvələrin Milli Şurasının üzvü Tofiq Yaqublunun park halında olan avtomobilinə Elxan Cəbrayılovun idarə etdiyi avtomobil çırpılıb. Tofiq Yaqublu bu barədə ‘Facebook’ səhifəsində yazaraq öyrədilmiş adamların provokasiya apardığını bildirib və polis çağırıb. Buna baxmayaraq, sonradan rəsmi qurumların açıqlamasında bildirilib ki, toqquşma Yaqublunun ucbatından olub, daha sonra isə o Elxan və həyat yoldaşı Cəvahir Cəbrayılovlara hücum edib, onlara yumruq və vintaçanla zərbələr endirib. Hadisə müstəqil müşahidəçilər tərəfindən provokasiya kimi qiymətləndirilib.

Bundan başqa aprel ayının 13-dən etibarən Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əli Kərimli və onun ailə üzvlərinin mobil və internet əlaqələri faktiki olaraq bloklanıb. Partiya sədri yeni qurğularla da bu əlaqələri bərpa edə bilməyib və hadisənin siyasi xarakterli olduğunu bildirib. AXCP sədrini ziyarətə gələn fəallar da bu və ya digər formada hüquq-mühafizə orqanlarının təzyiqi ilə üzləşiblər. Hətta ondan müsahibə alan jurnalist Teymur Kərimov da sonradan mülki geyimli şəxslər tərəfindən saxlanılıb və materiallar zorla əlindən alınıb.

AXCP üzvü Aqil Hümbətovsa prezidenti və hökumətin sosial siyasətini öz ‘Facebook’ səhifəsində tənqid etdiyi üçün mart ayı ərzində iki dəfə saxlanılıb. Sonuncu isə Aqil Hümbətovun zorla 1 saylı Psixiatriya Hospitalına yerləşdirilməsi ilə yadda qalıb. Ona uzun müddət vəkili ilə görüşməyə imkan verilməyib. Vəkili ilə görüşdükdə isə anlaqlığı yerində olan Hümbətov bu qərarın siyasi motivli cəza olduğunu bildirib. Saxlanma müddəti 2 dəfə uzadılan Hümbətov sonda iyul ayında hospitaldan evə buraxılıb.

Pandemiya həm də saxlanılan şəxslərin saxlanma məntəqələrində işgəncə və pis rəftara məruz qalması ilə pis mənada yaddaqalan olub. Belə ki, müxtəlif dövrlərdə gənc fəal Fuad İsmayılov, Müsəlman Birliyi Hərəkatı üzvləri Hikmət Ağayev və Abbas Hüseynov, AXCP üzvləri Niyaməddin Əhmədov və Arif Babayev müxtəlif saxlanma məntəqələrində döyülüblər, işgəncə və alçaldıcı rəftara məruz qalıblar.

Ümumilikdə isə, Prezidentin müvafiq çıxışından sonra start götürən yeni siyasi təzyiq dalğası əsasən hökumət tənqidçilərini və ictimai fəalları hədəf alıb. Pandemiya ilə mübarizənin ilk aylarında, təkcə iyulun ortalarına qədər ən az 56 hökumət tənqidçisi və siyasi fəal bu və ya

[1] President.az, ’İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki’, 19 Mart 2020, https://president.az/articles/36212?fbclid=IwAR2O0ZovAThV2KPp7mENmlxSymdnMhsEp5pEZP8EVnRRqPXcDL9ubc4NxAw

digər formada siyasi təzyiqə məruz qalıb. Onlardan 6 nəfərə qarşı cinayət işi açılıb, 33 nəfərsə inzibati məsuliyyətə cəlb olunub.

Təzyiqə məruz qalmış şəxslərlə bağlı ətraflı məlumatla tanış olmaq üçün qoşmaya nəzər yetirin

Əlaqə:

E-poçt: emc.az2001@gmail.com

Telefon: +994503334674

Veb səhifə: www.smdtaz.org

Tvitter: SMDT_EMDS

Qoşmalar

Qoşma 1 : COVID-19 pandemiyası ilə elan edilən karantin qaydalarından sui-istifadə nəticəsində siyasi təzyiqlə üzləşən siyasi fəallar və hökumət tənqidçiləri

| # | Ad Soyad | Siyasi mənsubiyyət, ictimai profil | Məruz qalınan siyasi təzyiq forması | Tarix |
|---|---|---|---|---|
| 1 | Anar Məlikov | Azərbaycan Xalq Cəbhəsi Partiyası | Inzibati həbs | 21/03/2020 |
| 2 | Tofiq Yaqublu | Milli Şura və Müsavat Partiyası | Həbs-qətimkan tədbiri | 22/03/2020 |
| 3 | Samir Babayev | Müsəlman Birliyi Hərəkatı | Inzibati həbs | 22/03/2020 |
| 4 | Elçin Məmməd | Jurnalist, İnsan haqları müdafiəçisi | Həbs-qətimkan tədbiri | 30/03/2020 |
| 5 | Aqil Hümbətov | AXCP | Zorla Psixiatriya Hospitalına yerləşdirilmə | 01/04/2020 |
| 6 | Ülfət Haqverdiyev | Azərbaycan Demokratiya və Rifah Hərəkatı | Inzibati cərimə | 05/04/2020 |
| 7 | Rövshən Murad | ADR | Inzibati cərimə | 05/04/2020 |
| 8 | Məhəbbət Murad | ADR | Hədələmə | 05/04/2020 |
| 9 | Şakir Məmmədli | ADR | Inzibati həbs | 06/04/2020 |
| 10 | Vəfadar Əliyev | ADR | Inzibati həbs | 08/04/2020 |
| 11 | Natiq İsbatov | Video-bloger/Jurnalist | Inzibati həbs | 09/04/2020 |
| 12 | Nəriman Abdulla | Aktivist | Inzibati həbs | 10/04/2020 |
| 13 | Fikrət Cəfərli | Klassik Xalq Cəbhəsi Partiyası | Inzibati cərimə | 10/04/2020 |
| 14 | Namizəd Səfərov | Hüquqşünas | Inzibati cərimə | 10/04/2020 |
| 15 | Nicat Abdullazadə | AXCP | Inzibati həbs | 10/04/2020 |
| 16 | Ibrahim Vəzirov | Jurnalist | Inzibati həbs | 12/04/2020 |
| 17 | Baba Süleymanov | AXCP | Inzibati həbs | 13/04/2020 |
| 18 | Əli Kərimli | AXCP | İnternet və Mobil əlaqələrin kəsilməsi, faktiki təcrid olunma | 13/04/2020 |
| 19 | Vüqar Əbilli | AXCP | Inzibati həbs | 16/04/2020 |
| 20 | Islam Islamzadə | AXCP | Inzibati həbs | 17/04/2020 |
| 21 | Teymur Kərimli | Jurnalist | Qanunsuz həbs, texnikanın müsadirəsi | 20/04/2020 |
| 22 | Arif Babayev | AXCP | Inzibati həbs, pis rəftar | 22/04/2020 |
| 23 | Əvəz Əhmadov | AXCP | Inzibati həbs | 22/04/2020 |
| 24 | Şəmsi Kəsəmənli | AXCP | Inzibati həbs | 25/04/2020 |

| | | | | |
|---|---|---|---|---|
| 25 | Iradə Nəriman | AXCP | Inzibati cərimə | 28/04/2020 |
| 26 | Elşən Babayev | AXCP | Inzibati həbs | 28/04/2020 |
| 27 | Elvin Məmmədov | AXCP | Inzibati həbs | 02/05/2020 |
| 28 | Namid Nağıyev | AXCP | Inzibati həbs | 07/05/2020 |
| 29 | Əli Imamxanlı | AXCP | Inzibati həbs | 09/05/2020 |
| 30 | Elxan Əliyev | AXCP | Inzibati həbs | 09/05/2020 |
| 31 | Ceyhun Rzayev | AXCP | Inzibati həbs | 09/05/2020 |
| 32 | Səid Məmmədzadə | AXCP | Həbs-qətimkan tədbiri | 16/05/2020 |
| 33 | Babək Həsənov | AXCP | Ayrıseçkiliyə məruz qalma, aclıq aksiyası | 17/05/2020 |
| 34 | Elvin Irşadov | Aktivist | Inzibati həbs | 19/05/2020 |
| 35 | Cəlal Zabitov | D18 Hərəkatı | Həbs-qətimkan tədbiri | 22/05/2020 |
| 36 | Ruslan Izzətli | D18 Hərəkatı | Ofisdən məcburi çıxarılma, qanuna zidd qaydada sənəd saxltalaşdırılmaqla zorla hərbi xidmətə yollanma | 25/05/2020 |
| 37 | Abbas Hüseynov | MBH | Pis rəftar, aclıq aksiyası və ayrıseçkiliyə məruz qalma | 29/05/2020 |
| 38 | Elşən Teymurov | Reper | Inzibati həbs | 02/06/2020 |
| 39 | Qiyas Ibrahim | Aktivist | Inzibati cərimə | 09/06/2020 |
| 40 | Alik Aslanov | MBH | Inzibati həbs | 10/06/2020 |
| 41 | Şamil Həsənov | MBH | Həbs-qətimkan tədbiri | 22/06/2020 |
| 42 | Firdovsi Əmrahov | AXCP | Qanunsuz saxlanılma | 25/06/2020 |
| 43 | Faiq Rəşidov | AXCP | Inzibati həbs | 26/06/2020 |
| 44 | Cavid Məmmədzadə | Aktivist | Inzibati cərimə | 26/06/2020 |
| 45 | Elşad Atayev | Müsavat | Inzibati həbs | 27/06/2020 |
| 46 | Əlixan Rəcəbov | AXCP | Qanuna zidd olaraq saxlanıldıqdan sonra uzun müddət xəbər almaq mümkün olmayıb | 04/07/2020 |
| 47 | Qaçay Qafarov | AXCP | Inzibati həbs | 05/07/2020 |
| 48 | Arif Paşayev | AXCP | Inzibati həbs | 13/07/2020 |
| 49 | Elvin Bəhmənoğlu | AXCP | Inzibati həbs | 14/07/2020 |
| 50 | Ilkin Rüstəmzadə | Nida Vətəndaş Hərəkatı | Həbsə cəhd, onlayn qaralama kampaniyası və kiber hücumlar | 08 Aprel, 23 May |

| | | | | |
|---|---|---|---|---|
| 51 | Faiq Əmirli | AXCP | Inzibati həbs | 08 Aprel, 25 May |
| 52 | Hikmət Ağayev | MBH | Inzibati cərimə, Inzibati həbs, Işgəncə | 10, 13 Aprel 2020 |
| 53 | Niyaməddin Əhmadov | AXCP | Inzibati həbs, Işgəncə, Həbs-qətimkan tədbiri | 16 Aprel, 19 May |
| 54 | Səadət Cahangir | Jurnalist / AXCP | Inzibati cərimə, texnikanın müsadirəsi | 28 Aprel, 1 May |
| 55 | Fuad Ismayilov | Aktivist | Inzibati həbs, Işgəncə | 7 Mart ,22 May, 21 Iyun |
| 56 | Ruslan Əmirli | AXCP | Inzibati həbs | 9 Aprel, 29 May |